Ədəbiyyat qəzeti

10 aprel 2021-ci il 23

# Elman TOVUZ - 60



Hörmətli Elman müəllim!

Sizi - tanınmış şairi 60 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1961-ci ildə Tovuz rayonunun Şıxheybət kəndində dünyaya göz açmısınız. İlk təhsilinizi doğulduğunuz kənddə alıb, 1978-ci ildə məşhur təhsil ocaqlarından biri olan Bozalqanlı kənd orta məktəbini bitirmisiniz. 1979-cu ildə Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olub, 1984-cü ildə ali təhsilinizi tamamlamısınız. Eyni zamanda həmin illərdə Azərbaycan Təhsil Nazirliyinin təsis etdiyi İctimai Peşələr Fakültəsinin jurnalistika (axşam) şöbəsini fərqlənmə diplomu ilə bitirib jurnalist ixtisasına yiyələnmisiniz. 1984-86-cı illər ərzində ordu sıralarında xidmət keçdikdən sonra 1987-ci ildən 1998-ci ilədək müxtəlif dövlət idarə və müəssisələrində məsul vəzifələrdə çalışmısınız. 1998-ci ildə avtomobil qəzası nəticəsində fiziki olaraq əmək qabiliyyətinizi itirmisiniz. Siz bədii yaradıcılığa tələbəlik illərindən başlamısınız. Təhsil aldığınız universitetin orqanı olan "İqtisadçı" qəzetinin redaksiya heyətinin üzvü olmusunuz. "Salam olsun" adlı ilk şeiriniz də məhz həmin qəzetdə işıq üzü görüb. Sonralar şeirləriniz müxtəlif mətbuat orqanlarında, dərgi və almanaxlarda dərc olunub. Siz çağdaş poeziyamızın xəzinəsinə töhfə verən şairlərdənsiniz. Bir neçə, o cümlədən "Hara gedir bu yol belə...", "Dünya, məni mənə qaytar", "Dəlir ürəyimi demədiklərim", "Sən məni yuxuda çağır bir axşam", "101 qoşma" kimi kitabların müəllifisiniz. Dünyaya göz açandan saz səsi eşitməyiniz, aşıq məclisləri, dastan gecələri görməyiniz, heç şübhəsiz, sizin gələcək yaradıcılığınızda daha çox aşıq ədəbiyyatına, klassik üsluba meyil etmənizə yol açmışdır. İstər ustadlar, istər gənc aşıqlar şeirlərinizə mütəmadi olaraq müraciət edirlər. Siz poeziyanın bütün janrlarında qələminizi sınaqdan keçirmisiniz. Məzmun etibarilə də yaradıcılığınız rəngarəngdir. Vətənpərvərlik mövzusunda yazdığınız şeirlər xüsusilə sizə geniş oxucu auditoriyası qazandırmışdır. İnternet portalları və sosial şəbəkələrdə, saytlarda və s. media orqanlarında şeirləriniz, müxtəlif məsələlərə maraqlı yanaşmalarınızla müntəzəm olaraq çıxış edirsiniz. Bir çox humanitar birlik və cəmiyyətlərdə təmsil olunursunuz. Əlbəttə, bu fəallığınız və aktivliyiniz təkcə ədəbiyyat baxımından deyil, həyati tərəfdən də fiziki məhdudiyyətli şəxslər üçün bir stimuldur.

Hörmətli Elman müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**